AİDS, Vərəm və Malyariya
ilə mübarizə üzrə
QLOBAL FOND

LAYİHƏNİN ƏLAQƏLƏNDİRMƏ BÜROSU

IIV/QİÇS, Vərəm və Malyariya
ilə mübarizə Programı

WWW.GFAIDS.AZ

# Bəşəriyyətin QİÇS və Vərəmdən xilası hər birimizdən asılıdır!

*İNFORMASİYA BÜLLETENİ* — №19, 9 Dekabr 2011-ci il

## QİÇS, Vərəm və Malyariya ilə mübarizə üzrə Qlobal Fondun əsas iş prinsipi ondan ibarətdir ki, o, İİV, Vərəm və Malyariya xəstəliklərinin müalicəsi və bu xəstəliklərin qarşısının alınmasına dəstək olur

### ÖƏK-in Nəzarət Komitəsinin birinci iclası keçirildi

04 noyabr 2011-ci il tarixində LƏB-in ofisində ÖƏK-in Nəzarət Komitəsinin (NK) 1-ci iclası keçirilib. İclasda NK-nın üzvləri və ÖƏK Katibliyinin əməkdaşları tam tərkiblə iştirak etmişlər. İclasın gündəliyində duran əsas məsələlərə NK-nın sədrinin seçilməsi, NK üzvlərinə Nəzarət Planı və NK-nın funksiyaları barədə məlumatın verilməsi, ÖƏK Katibliyi tərəfindən hazırlanmış nəzarət səfərlərinin təqvim və büdcəsinin baxılıb təsdiqlənməsi, son dövrü əhatə edən göstəricilər panelinin iclas iştirakçılarına təqdim olunması, layihələrin icrasında mövcud problemlərin müzakirəsi və müzakirə edilmiş problemlərə əsaslanaraq NK-nın növbəti nəzarət səfərlərinin planlaşdırılması daxildir.



NK-nin sədrinin seçilməsi səsvermə yolu ilə keçirilmiş və səsvermənin nəticələrinə əsasən Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktor müavini İradə Axundova NK-nın sədri seçilmişdir. NK-nın nəzarət səfərlərinin təqvim və büdcəsi müzakirə edilmiş və təsdiqlənmişdir. İclasın gündəliyində duran digər məsələlər də müzakirə olunaraq müvafiq qərarlar qəbul edilmişdir.

### "Həyati Bacarıqlara Əsaslanan Təhsil" üzrə vəsaitin İİV, CYYX və narkomaniya ilə bağlı mövzularının yenidən işlənilməsi

Qlobal Fondun İİV Proqramı çərçivəsində həyata keçirilən və 2006-cı ildən davamlı olaraq tətbiq edilən "Həyati Bacarıqlara Əsaslanan Təhsil" (HBƏT) kursu bu gün interaktiv öyrənmə üsullarından istifadə etməklə şagirdlər arasında sağlam həyat tərzini təbliğ edir. Kursun müəllimlər üçün nəzərdə tutulmuş dərsliklərində qarşılıqlı münasibət, xüsusən də bacarıqların inkişaf etdirilməsi vasitəsilə sağlam fərdi və fərdlərarası münasibət mühitinin yaradılmasına xidmət edən mövzulara toxunulmuşdur. Bundan başqa dərslikdə sosial və sağlamlıq bölmələri də vardır ki, burada da uşaqların ictimai münasibətlərindən, hüquqlarının qorunması sahəsində və sağlam inkişafı üçün lazımi şərait yaradılması, ailə və cəmiyyətin digər təbəqələri ilə düzgün dialoqun qurulmasından, uşaqların maraq dairəsindən, əqli, mədəni və sosial inkişaf səviyyəsindən, eləcə də, gender problemlərinin mümkün həlli yollarından bəhs edilir.

Ümumilikdə, HBƏT təhsilin bütün pillələrində gənclərin sağlamlığı sahəsində yaranan problemlərin qarşısının alınmasına xidmət edir. Tam sağlam həyatı dərk edən, hüquq və vəzifələrini lazımi şəkildə yerinə yetirən, hər cür zərərli vərdişlərin öhdəsindən gələn, lazım gəldikdə özünə və yoldaşlarına yardım etməyi bacaran şəxsiyyət yetişdirmək bu təhsilin əsas məqsədidir.

Bu gün "Həyatı Bacarıqlara Əsaslanan Təhsil" kursu Naxçıvan MR daxil olmaqla Respublikanın bütün rayonlarını əhatə edir. Bakı şəhərində və rayonlarda "Reproduktiv sağlamlıq", "Zərərli vərdişlər", "Sağlam rəqabəti necə qurmalı?" "YOX demək bacarığı" mövzularında tədbirlər və açıq dərslər keçirilməkdədir. Habelə Bakı, Gəncə, Sumqayıt və Mingəçevir kimi şəhərlərin orta məktəblərində "1 Dekabr-Beynəlxalq QİÇS-lə mübarizə günü"nə həsr olunmuş tədbirlər də keçirilib.

Təhsil Naziri Misir Mərdanovun əmri ilə "Həyati Bacarıqlara Əsaslanan Təhsil" üzrə fakültativ kursun tədrisi ilə əlaqədar müəllimlərlə təlimlərin təşkili məqsədilə təlimçilər bölgələrə ezam olunurlar.
Bundan başqa, hal-hazırda layihənin işçi qrupu müəllimlər üçün nəzərdə tutulmuş HBƏT vəsaitinin İİV, CYYX və narkomaniya mövzularının üzərində yenidən işləyir. Və kitab tam hazır olduqdan sonra çapı nəzərdə tutulub.

## Azərbaycanda Ümumdünya QİÇS-lə mübarizə günü ilə əlaqədar bir sıra tədbirlərin təşkili

Hər il olduğu kimi ölkə üzrə Ümumdünya QİÇS-lə mübarizə günü ilə əlaqədər bir sıra maarifləndirici tədbir və aksiyalar həyata keçirilib. Bu gün ilə əlaqədar Azərbaycanın bir çox ümumtəhsil ocaqlarında maarıfləndirici tədbirlər təşkil olunub. Belə ki, 30 Noyabr 2011-ci il tarixində 132 və 134 saylı məktəblərdə "Biz QİÇS olan dövrdə yaşayırıq" adlı dərs-konfrans təşkil edilimişdir. Tədbirin keçirilməsinin əsas məqsədi gənclər arasında maarifləndirmə, zərərli vərdişlərdən çəkindirmə, sağlam həyat tərzinin təbliği və bu sahəyə gənclərin diqqətinin artırılmasıdır.



Tədbir çərçivəsində sağlam həyat tərzi ilə bağlı sorğular, səhnəciklər, və QİÇS mövzusu ətrafında müzakirələr aparıldı. Təbbirə qatılan Respublika QİÇS-lə Mübarizə Mərkəzinin əməkdaşları tərəfindən gənclərə bu xəstəliyin törətdiyi fəsadlar barədə məlumat verildi, narkotik vasitələrin ümumi orqanizmə təsiri və zədələnmə xüsusiyyətləri, ölüm və əlillik, narkotik vasitələrinin istifadəsi nəticəsində yayılan xəstəliklər, ailə və cəmiyyətə zərbə, cinsi yolla yoluxan xəstəliklər mövzusunda mühazirələr oxundu.

1 Dekabr QİÇS-lə mübarizə günü ilə bağlı ölkədə media arasında təbliğatın gücləndirilməsi, penitensiar xidmətdə tamaşaların qurulması, TV kanallarda QİÇS mövzusu ilə bağlı verilişlərin və tamaşaların nümayişi təşkil olunub. Təbliğat və maarifləndirmə kampaniyalarına bir sıra beynəlxalq təşkilatlar da qatılıb. Belə ki, Narkotik və Ağır Cinayətlər üzrə BMT-nin ofisi Dövlət Narkotiklərlə Mübarizə Komitəsi ilə birgə İNİ və məhkumların sağlamlıq, hüquq-mühafizə və sosial problemlərinə



həsr olunmuş konfrans təşkil etmişdir. BMT-nin İİV/QİÇS üzrə Birgə Proqramı tərəfindən müxtəlif geniş aksiyalar həyata keçirilmiş, Açıq Cəmiyyət İnstitutu-Yardım Fondu və Qlobal Fondun İİV Proqramı tərəfindən "1 dekabr Ümumdünya QİÇS Günü"-nə həsr olunmuş çap və video materialları paylanılmışdır. Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən KİV-də görüş və debatlar, təhsil və səhiyyə ocaqları və QHT-lər arasında maarifləndirmə fəaliyyətləri, konsertlər geniş ictimaiyyətin nəzərinə çatdırılmışdır.

## Bu ilin 11 ayı ərzində Azərbaycanda 476 yeni İİV-ə yoluxma faktı aşkar olunub

1 Dekabr "Ambassador" mehmanxanasında Ümumdünya QİÇS-lə mübarizə gününə həsr olunan KİV nümayəndələrinin iştirakı ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və BMT-nin İİV üzrə birgə Proqramının (UNAİDS) birgə təşəbbüsü ilə dəyirmi masa keçirilib. Tədbirdə Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktoru Həqiqət Qədirova, BMT-nin İİV üzrə birgə Proqramının Azərbaycandakı nümayəndəsi Cəmilə Cərrahova, Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin aparıcı məsləhətçisi Təranə Nəzərova, Ümumdünya Səhiyyə təşkilatının nümayəndəsi Cəvahir Süleymanova və digər rəsmilər çıxış ediblər. Respublika QİÇS-lə



Mübarizə Mərkəzinin direktoru Həqiqət Qədirova bildirib ki, ilk dəfə Ümumdünya QİÇS-lə Mübarizə Günü cəmiyyət arasında İİV haqda bilikləri

artırmaq, onunla mübarizə üçün maliyyə dəstəyini səfərbər etmək və İİV-ə qarşı damğanı aradan qaldırmaq üçün qeyd olunub. Onun sözlərinə görə, cari ilin 11 ayı ərzində Azərbaycanda 476 yeni İİV-ə yoluxma faktı aşkar olunaraq qeydiyyata alınıb və İİV infeksiyasının ilk dəfə aşkar edildiyi 1987-ci ildən 2011-ci ilin dekabr ayına kimi Respublika QİÇS-lə Mübarizə Mərkəzində 3199 nəfər rəsmi qeydiyyata götürülüb. QİÇS mərhələsində olan insanların sayı 875 nəfər, onlardan Azərbaycan vətəndaşlarının sayı 861 nəfər, İİV-infeksiyasından dünyasını dəyişmiş insanların sayı 424 nəfər, onlardan Azərbaycan vətəndaşlarının sayı 416 nəfər olmuşdur. H.Qədirova qeyd edib ki, Səhiyyə Nazirliyi tərəfindən İİV-lə yaşayan insanlara profilaktika, müalicə, qulluq və dəstəklə təmin edilir. Qlobal Fondun və Səhiyyə Nazirliyinin dəstəyi ilə Antiretrovirus müalicəsi hazırda 876 İİV-lə yaşayan insan arasında aparılır, onlardan 289 nəfərinin müalicəsi cari ilin 11 ayı ərzində başlanıb.

## Zərərin Azaldılması Şəbəkəsi 1 Dekabrla bağlı aksiya keçirdi

Dekabrın 1-də Azərbaycan Zərərin Azaldılması Şəbəkəsinin üzv təşkilatları və bu təşkilatlarda çalışan əməkdaşların iştirakı ilə Ümumdünya QİÇS-lə Mübarizə günü münasibətilə tələbələr arasında Azərbaycan İqtisad Universitetinin qarşısında aksiya təşkil olunub.

Aksiya iştirakçıları universitetin qarşısına toplaşan tələbələrə və həmçinin həmin ərazidən keçən insanlara İİV-lə bağlı bukletlər və İİV-in Azərbaycanda yayılmasına dair son vəziyyəti əks etdirən rəqəmlərdən ibarət kiçik broşurlar payladılar. Tələbələrə bu virusun yayılması, ondan qorunmağın yolları, həmçinin İİV-lə yaşayan insanlara cəmiyyətin münasibətinə dair ətraflı məlumat verildi. Tələbələrin bununla bağlı çoxsaylı sualları cavablandırıldı.



Aksiyada iştirak edən şəbəkə üzvü Gülayə Səfərovanın sözlərinə görə, gənclər hazırda risk qrupuna daxil olan əsas qruplardan biridir və onların arasında belə maairfləndirmə tədbirlərinin aparılması çox vacibdir. Belə məlumatlandırma kampaniyaları vasitəsilə informasiya geniş auditoriyaya çatdırılır və həmçinin əks əlaqə də əldə olunur: tələbələr onları maraqlandıran müxtəlif suallara cavab tapa bilirlər.

Tələbələr də eyni zamanda İİV-lə bağlı səthi də olsa, məlumat əldə etdiklərini, lakin bununla belə, daha geniş informasiyaya ehtiyac olduğunu vurğuladılar. Məsələn, İİV-in ötürülmə yolları, ondan qorunmağın üsullarına dair verilən məlumatlar onlar üçün həqiqətən çox faydalıdır. Gənclər aksiyanın sonunda təşkilatçılarla birlikdə «Biz QİÇS-ə yox deyirik!» şüarını səsləndirdilər.

**Layihənin Əlaqələndirmə Bürosunun informasiya bülleteni Qlobal Fondun "Azərbaycanda İİV/QİÇS, Vərəm və Malyariya ilə mübarizə Proqramı çərçivəsində nəşr edilir.**


| | | |
|---|---|---|
| **Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Layihənin Əlaqələndirmə Bürosu** | Bakı ş., AZ1005, T. Əliyarbəyov küçəsi 3 2-ci mərtəbə | Tel:(+99412) 4982016 Faks:(+99412) 4982001 erasulova@gfaids.az, www.gfaids.az |
| **Müalicə və diaqnostika təyin edilməsi ilə bağlı Respublika QİÇS-lə Mübarizə Mərkəzinə müraciət edə bilərsiniz** | Bakı ş., AZ1022, Mir-Kasımov küçəsi 1/8 | Tel:(+99412) 5100869 Faks:(+99412) 4947353 office@aids.az |


Investing in our future THE GLOBAL FUND To Fight AIDS, Tuberculosis & Malaria

**İİV/QİÇS, Vərəm və Malyariya ilə mübarizə Proqramı**